QANUN № 02 (352), 2024, s. 162-165

**Əkbərova Fidan Anar qızı,**
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının 2-ci kurs magistrantı
E-mail: fidanakbarova380@gmail.com

**UOT 342**
**DOI: 10.30546/2218-9130. 02.352.2024.44**

# DİNİ EKSTREMİZMƏ QARŞI CİNAYƏT-HÜQUQİ MÜBARİZƏ VƏ ONUN PROFİLAKTİKASININ BƏZİ MƏSƏLƏLƏRİ

***Açar sözlər:*** *din, ekstremizm, cinayət, profilaktika.*

***Ключевые слова:*** *религия, экстремизм, преступность, профилактика.*

***Keywords:*** *religion, extremism, crime, prevention.*

"Dini ekstremizmə qarşı mübarizə haqqında" 4 dekabr 2015-ci il tarixli Azərbaycan Respublikası Qanununa müvafiq olaraq dini ekstremizm (dini ekstremist fəaliyyət) dedikdə dini düşmənçilik, dini radikalizm və ya dini fanatizm zəminində Azərbaycan Respublikasının konstitusiya quruluşunun, o cümlədən onun dünyəvi xarakterinin zorla dəyişdirilməsinə və ya ərazi bütövlüyünün parçalanmasına, yaxud hakimiyyətin zorla ələ keçirilməsinə yönələn hərəkətlərin törədilməsi, qanunsuz silahlı birləşmələrin və ya qrupların yaradılması, həmin birləşmə və ya qruplarda iştirak edilməsi; terror fəaliyyətinin həyata keçirilməsi; Azərbaycan Respublikasının hüdudlarından kənarda silahlı münaqişələrdə iştirak edilməsi; milli, sosial və ya dini nifrətin salınması, milli ləyaqətin alçaldılması, milli, irqi, sosial və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına və ya üstünlüklərinin müəyyən edilməsinə yönələn hərəkətlərin törədilməsi; şəxsin hər hansı dinə (dini cərəyana) etiqad etməyə, o cümlədən dini ayin və mərasimləri yerinə yetirməyə və ya dini ayin və mərasimlərdə iştirak etməyə, habelə dini təhsil almağa məcbur edilməsi; bu Qanunun 1.0.1.1 – 1.0.1.5-ci maddələrində nəzərdə tutulmuş əməllərin törədilməsinə açıq çağırışların edilməsi; dini ekstremist materialların, yəni dini ekstremist fəaliyyəti həyata keçirməyə çağıran və ya belə fəaliyyəti əsaslandıran, yaxud belə fəaliyyətin zəruriliyinə bəraət qazandıran materialların hazırlanması, saxlanması və ya yayılması və dini ekstremizmin maliyyələşdirilməsi başa düşülür.

Azərbaycanda dini ekstremizmə qarşı mübarizə ölkənin daxili stabilliyini poza biləcək vətəndaşlar arasında radikallaşmanın qarşısını almaq üçün dövlət orqanları ilə birgə əməkdaşlıq nəticəsində həyata keçiriləcək bütün inzibati cəza tədbirləri və hüquqi addımları özündə ehtiva edir. Bu mənada Avstraliyada məşhur İqtisadiyyat və Sülh İnstitutu tərəfindən dərc olunan 2015-ci il Qlobal Terrorizm İndeksində Azərbaycanın potensial terror hədələrinin qarşısının alındığı və bu sahədə qabaqlayıcı ölçülərin götürüldüyü dünyanın əmin ölkələri arasında yer alması heç də təsadüfi deyil [6]. Bu, hər şeydən

əvvəl Azərbaycan xalqının milli kimliyini tarixə istinad edərək dərk etməsi, azərbaycançılıq ideologiyasına əsaslanan yeni təfəkkür tərzinin formalaşması ilə bağlıdır.

Fəlsəfi mənada milli kimliyin 3 özül – milli dil, adət-ənənə və dini etiqad üzərində bərqərar olması fikri artıq alimlər arasında demək olar ki, mübahisə doğurmur.

**Milli dil haqqında.** Azərbaycan Respublikası Konstitusiyasının 21-ci maddəsində qeyd edilir ki, Azərbaycan Respublikasının Dövlət dili Azərbaycan dilidir. Həmin maddənin 2-ci hissəsində "Azərbaycan Respublikası əhalinin danışdığı başqa dillərin sərbəst işlədilməsini və inkişafını təmin edir" müddəası təsbit edilmişdir. Faktiki olaraq, Azərbaycan dövləti, dövlət dilinin inkişafı ilə bərabər, ölkə ərazisində yaşayan digər xalqların da dilinin inkişaf etdirilməsi öhdəliyini öz üzərinə götürmüşdür.

**Milli adət-ənənə haqqında.** Ölkə konstitusiyasının 25-ci maddəsində göstərilir ki, dövlət irqindən, etnik mənsubiyyətindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən və s. asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, etnik, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır.

Azərbaycan çoxmillətli dövlətdir və bu dövlət ərazisində yaşayan bütün xalqların adət-ənənələrinin inkişafı üçün bərabər şərait yaradılmışdır. Ölkəmizdə 861 dini qurum dövlət qeydiyyatından keçmişdir. Onlardan 830-u müsəlman, 31-i qeyri-müsəlman təşkilatıdır. 31 qeyri-müsəlman təşkilatından 20-si xristian, 8-i yəhudi, 2-si bəhayi, 1-i isə krişna şüuru dini icmasıdır. Dövlət bu dini icmalara maliyyə yardımı ayırır, məscidlərin, sinaqoqların və kilsələrin bərpası və yenidən qurulması üçün onlara maddi yardım göstərir [1, s. 6]. Yeri gəlmişkən qeyd edilməlidir ki, Azərbaycanda 200 ildir alman icmaları mövcuddur və onlar bizim multikultural cəmiyyətimizin ayrılmaz tərkib hissəsidirlər.

**Dini etiqad haqqında.** Milli kimliyin dərkinin əsaslarından biri olan dini etiqad məsələsi ən həssas məsələ olduğu üçün o, məqaləmin leytmotivini təşkil edəcəkdir. Azərbaycan Respublikası Konstitusiyasının 48-ci maddəsi hər kəsin vicdan azadlığını tanıyır və bildirir ki, hər kəsin dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ vardır. Göründüyü kimi, ölkə konstitusiyası hər kəsə dini etiqadını reallaşdırmaq üçün geniş ictimai-siyasi və hüquqi əhatə dairəsi təqdim etmişdir. Lakin bu o demək deyildir ki, dini etiqad azadlığının sərhədləri yoxdur. Azərbaycan Respublikası Konstitusiyasının 18-ci maddəsi insan ləyaqətini alçaldan və ya insanpərvərlik prinsiplərinə zidd olan dinlərin (dini cərəyanların) yayılması və təbliğini qadağan etmiş, 48-ci maddə isə "dini mərasimlərin yerinə yetirilməsi ictimai qaydanı pozmursa və ictimai əxlaqa zidd deyildirsə, sərbəstdir" ifadəsi öz təsbitini tapmışdır. Daha sonra əlavə edilmişdir ki, heç kəs öz dini etiqadını və əqidəsini ifadə etməyə, dini mərasimləri yerinə yetirməyə və ya dini mərasimlərdə iştirak etməyə məcbur edilə bilməz.

Dünyada, xüsusilə də Şərqdə baş verən hadisələr onu göstərir ki, dini etiqad azaldığının ifadəsi üçün əsaslı hüquqi zəmin yaradılmadıqda, bütün dinlərin qanun qarşısında bərabərliyi prinsipi pozulduqda, dini maarifləndirmə ilə bağlı məsələlər arxa plana keçirildikdə, dini etiqad azadlığına qarşı yönələn qəsdlərlə səmərəli cinayət-hüquqi mübarizə aparılmadıqda dini ekstremizm üçün münbit şərait yaranmış olur. Məhz belə halların qarşısının alınması məqsədi ilə ölkəmizdə "Dini ekstremizmə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir [4]. Burada əsas məqsədlərdən biri dini ekstremizmin profilaktikasıdır.

Qeyd edilən qanunun qəbulundan sonra bir sıra qanunvericilik aktlarında, o cümlədən "Dini

etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa da dəyişikliklər edildi. Belə ki, bu dəyişikliklərə əsasən Azərbaycan Respublikasında fəaliyyət göstərən dini mərkəz (idarə) tərəfindən dəvət edilmiş və ya Azərbaycan Respublikasında rəsmi səfərdə olan əcnəbi və ya vətəndaşlığı olmayan din xadimləri istisna olmaqla, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində dini təbliğat aparılması qadağan edilmiş, islam dininə aid ayin və mərasimlərin aparılmasının yalnız Azərbaycan Respublikasının vətəndaşları tərəfindən həyata keçirilməsi nəzərdə tutulmuş, xaricdə dini təhsil almış Azərbaycan Respublikasının vətəndaşlarının Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə razılaşdırmaqla Qafqaz Müsəlmanları İdarəsi tərəfindən islam dininə aid ayin və mərasimlərin aparılmasına buraxılması təsbit edilmişdir [5]. Bu əhəmiyyətli dəyişikliklər ölkəmizdə dini ekstremist fəaliyyətlə məşğul olmaq istəyən dini qurumların fəaliyyətinin qadağan edilməsinin təmin edilməsi zəminində hüquqi bazanı daha da möhkəmləndirmiş oldu.

"Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" qanununa da əlavə və dəyişiklik edilmişdir. Qüvvədə olan qanuna görə *Azərbaycan Respublikası vətəndaşının terror fəaliyyətində iştirakı və ya Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətləri həyata keçirməsi; Azərbaycan Respublikası vətəndaşının dini ekstremist fəaliyyətdə iştirakı, o cümlədən dini düşmənçilik zəminində dini məzhəblərin yayılması və ya dini ayinlərin icrası adı altında xarici dövlətdə silahlı münaqişədə iştirak etməsi və ya həmin münaqişəyə digər şəxsi cəlb etməsi, yaxud bu məqsədlə sabit qrup yaratması, habelə Azərbaycan Respublikası vətəndaşının dini təhsil adı altında xarici dövlətdə hərbi təlim keçməsi* ölkə vətəndaşlığının itirilməsinin əsaslarından biri kimi çıxış edir [3].

"Dini ekstremizmə qarşı mübarizə" haqqında qanunun qəbulundan sonra Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214-cü maddəsinə (Terrorçuluq) yeni bir hissə əlavə edilmişdir (214.2.6). Bu əlavəyə görə dini düşmənçilik, dini radikalizm və ya dini fanatizm zəminində terrorçuluq artıq müstəqil cinayət tərkibi kimi müəyyən edilir [2]. Halbuki bir çox dövlətlərin cinayət qanunvericiliyində belə cinayət tərkibi nəzərdə tutulmamışdır.

Heç kimə sirr deyildir ki, bir çox dövlətlərin vətəndaşları müxtəlif din pərdəsi altında gizlənərək terror hadisəsi törətmək, silahlı münaqişələrdə iştirak etmək məqsədi ilə digər dövlətlərə miqrasiya edirlər. Geri döndükdə isə psixoloji durumu dəyişmiş, dini ekstremizm meyilli, ölkə üçün təhlükəli bir vətəndaşa çevrilirlər. Belə hallarla cinayət hüquqi mübarizə məqsədi ilə Cinayət Məcəlləsinin 283-1 maddəsində (Azərbaycan Respublikasının hüdudlarından kənarda silahlı münaqişələrdə iştirak etmək məqsədi ilə sabit qrup yaratma) dəyişiklik edilərək dispozisiyasına "dini radikalizm və ya dini fanatizm" zəminində sözləri əlavə edilmiş və maddənin dispozisiyası aşağıdakı kimi verilmişdir:

"Azərbaycan Respublikası vətəndaşlarını və ya Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsləri dini məzhəbləri yaymaq, dini ayinlərin icrası adı altında, yaxud dini düşmənçilik*, dini radikalizm və ya dini fanatizm* zəminində Azərbaycan Respublikasının hüdudlarından kənarda aparılan silahlı münaqişələrə cəlb etmə, yaxud bu məqsədlə döyüş təlimləri keçirmə, yaxud həmin məqsədlə fəaliyyət göstərən sabit qrup yaratma və ya belə qrupa rəhbərlik etmə" [2].

Maraqlı məqamlardan biri də "Dini ekstremizmə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsində (Dəymiş ziyana görə məsuliyyətdən azad olma) nəzərdə tutulan müddəalardır. Normaya görə, Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada dini ekstremizm əleyhinə aparılan xüsusi əməliyyat zamanı dini ekstremistlərin həyatına, sağlamlığına və ya əmlakına ziyan vu-

rulmasına yol verilir [4]. Bu zaman dini ekstremizmə qarşı mübarizədə iştirak edən şəxs dini ekstremistlərin həyatına, sağlamlığına və ya əmlakına vurulmuş ziyana görə məsuliyyət daşımır.

Görülən tədbirlərin nəticəsidir ki, son 25 ildə Azərbaycanda dini zəmində baş verən cinayətlərin sayında böyük azalma meyilləri müşahidə olunur, ölkə hüdudlarından kənarda silahlı birləşmələrdə iştirak edən Azərbaycan vətəndaşlarının sayı isə qonşu dövlətlərlə müqayisədə kifayət qədər aşağı rəqəm təşkil edir.

**İstifadə edilmiş mənbələr:**

1. Azərbaycan beynəlxalq müstəqidə dinləri bir araya gətirən qabaqcıl ölkə kimi tanınır // Azərbaycan qəzeti. – 2018, 20 noyabr. – s. 6

2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu // 28 oktyabr 2016-cı ildə qəbul edilmişdir, № 365-VQD: [Elektron resurs]/URL: https://e-qanun.az/framework/34472

3. "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanunu // 30 sentyabr 1998-ci ildə qəbul edilmişdir, № 527-IQ (1 may 2020-ci il tarixdə olan dəyişikliklər ): [Elektron resurs]/URL: https://e-qanun.az/framework/3187

4. "Dini ekstremizmə qarşı mübarizə" haqqında Azərbaycan Respublikasının Qanunu // 4 dekabr 2015-ci ildə qəbul edilmişdir, № 27-VQ (17 fevral 2023-cü il tarixdə olan dəyişikliklər): [Elektron resurs]/URL: http://www.e-qanun.az/framework/31509

5. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu// 20 avqust 1992-ci ildə qəbul edilmişdir, № 281 (26 dekabr 2023-cü il tarixdə olan dəyişikliklər): [Elektron resurs]/URL: http://www.e-qanun.az/framework/7649

6. Musayev, S. Azərbaycan radikallaşmanın qarşısı necə alınır // Azvizion.az – 2016, 22 mart: [Elektron resurs]/URL: https://azvision.az/news/85909/azerbaycan-radikallasmanin-qarsisini-nece-alir-.html

**Акбарова Фидан Анар гызы**

## УГОЛОВНО-ПРАВОВАЯ БОРЬБА С РЕЛИГИОЗНЫМ ЭКСТРЕМИЗМОМ И НЕКОТОРЫЕ ВОПРОСЫ ЕГО ПРОФИЛАКТИКИ

### РЕЗЮМЕ

Выявление случаев религиозного экстремизма и борьба с ними в юридической практике очень важны с аспектов поддержания мира и спокойствия, защиты прав и свобод человека на высоком уровне, обеспечения безопасности государства. В настоящей статье затронуты некоторые важные нюансы уголовно-правовой борьбы с религиозным экстремизмом и его предотвращения. Обращая внимание на эти нюансы, можно правильно выбрать методы уголовно-правовой борьбы с религиозным экстремизмом и меры профилактики.

**Akbarova Fidan Anar**

## CRİMİNAL-LEGAL FİGHT AGAİNST RELİGİOUS EXTREMİSM AND SOME İSSUES OF İTS PREVENTİON

### SUMMARY

Identifying cases of religious extremism and combating them in legal practice is very important from the aspects of maintaining peace and tranquility, protecting human rights and freedoms at a high level, and ensuring the security of the State. In the current article, some important nuances of the criminal-legal fight against religious extremism and its prevention have been touched upon. By paying attention to these nuances, it is possible to correctly choose the methods of criminal-legal struggle against religious extremism and preventive measures.

**Redaksiyaya daxilolma tarixi: 16.02.2024**
**Təkrar işlənməyə göndərilmə tarixi: 17.02.2024**
**Çapa qəbul olunma tarixi: 19.02.2024**